Hazırda TİMS bazasında 1 milyon 400 mindən çox şagird və 200 mindən çox müəllim və digər işçilər haqqında məlumat yerləşdirilib. Təqdirəlayiq haldır ki, bazaya məlumatların daxil olunması məhz məktəblərin (Təhsil şöbələrinin) özləri tərəfindən aparılıb və həmin məlumatlar dərs ili ərzində daim yenilənib.

Ötən dərs ilində buraxılış sinifləri üçün sınaq və yekun imtahanlar TİMS bazasının məlumatları əsasında aparılıb. İmtahanların nəticələrinə görə şagirdlərə verilən şəhadətnamə, yaxud attestatların nömrələri məlumat bazasına daxil edilib.

Görülmüş işlərin nəticəsi olaraq yeni dərs ilindən statistik hesabatların proqram təminatı tərəfindən formalaşdırılması və həmin hesabatların məlumat bazası şəklində qəbul olunması imkanı yaranıb. Hazırda bazada olan məlumatların yeni dərs ilinə uyğunlaşdırılması (şagirdlərin növbəti sinfə keçirilməsi və 11-ci sinif şagirdlərinin yeni bazadan silinməsi), eləcə də məktəbəqədər tədris müəssisələri və ali məktəblər üçün proqram təminatının hazırlanması üzərində işlər gedir.